**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN - FRANSA MÜNASİBƏTLƏRİ (1991-2003-cü illər)

İxtisas: 5502.01 – Ümumi tarix
Elm sahəsi: Tarix

**İddiaçı: Səlimə Sabir qızı Quliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2024**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: AMEA-nın müxbir üzvü, professor
**Musa Cəfər oğlu Qasımlı**

Rəsmi opponentlər: Tarix elmləri doktoru, professor
**Zeynal Mədət oğlu Həsənəliyev**

Tarix üzrə fəlsədə doktoru, dosent
**Sona Səbəddin qızı Məhərrəmova**

Tarix üzrə fəlsəfə doktoru,dosent
**Aynur Məhərrəm qızı Hacıqədirli**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin Tarix fakültəsi nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ____________ tarix üzrə elmlər doktoru, professor
**İbrahim Xudaverdi oğlu Zeynalov**

Dissertasiya şurasının elmi katibi: ____________ tarix üzrə fəlsəfə doktoru, dosent
**Kəmalə Telman qızı Nəcəfova**

Elmi seminarın sədri: ____________ tarix üzrə elmlər doktoru
**Aidə Rəhim qızı Bağırova**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
BAKI DÖVLƏT UNİVERSİTETİ p.h.ş.
Ministry of Science and Education of the Republic of Azerbaijan
Baku State University l.e.p.l.
BDU
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
(S.A.A.)
„14" 05 2025

# I.DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** 1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının xarici siyasətinin Avropa istiqamətində Fransa Respublikası ilə münasibətlər mühüm yer tutdu. Fransa hökuməti 1992-ci il yanvarın 3-də Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanımış, fevral ayında iki ölkə arasında diplomatik əlaqələr qurulmuş, martın 11-də Fransa Respublikasının Azərbaycanda səfirliyi fəaliyyətə başlamışdır. Lakin müstəqilliyin ilk illərində qarşılıqlı münasibətlər heç də müsbət məcrada inkişaf etməmiş, bəzi amillərin, xüsusən erməni lobbisinin təsiri altında Fransa tərəfi Azərbaycana münasibətdə bir çox hallarda ədalətsiz mövqedən çıxış etmişdir. Fransa ilə münasibətlərinin qurulması və inkişafına Azərbaycanın xüsusi diqqət yetirməsinin bir sıra səbəbləri var idi. Fransanın Azərbaycan Respublikasına münasibətdə xarici siyasətinin məqsəd və vəzifələrinin müəyyənləşməsində Azərbaycanın regional geosiyasi, geoiqtisadi rolu və geostrateji mövqeyi başlıca rol oynayırdı.

2022-ci ildə iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi tamam oldu. Azərbaycan Respublikası dövlətinin xarici siyasət fəaliyyətinin formalaşması və həyata keçirilməsi həm də müstəqil dövlət quruculuğu prosesi ilə müşayiət olunduğundan rast gəlinən bütün problemlər onun xarici siyasətinə də öz təsirini göstərirdi. Keçid dövrünün çətinliklərinin olduğu bir şəraitdə müstəqil xarici siyasət xəttini formalaşdırmaq, onun əsas prioritetlərini, məqsəd və vəzifələrini, istiqamətlərini müəyyən etmək və beynəlxalq münasibətlər sisteminə qatılmaq o qədər də asan iş deyildi.

Azərbaycan Respublikasının Fransa Respublikası ilə qarşılıqlı münasibətləri müxtəlif mərhələlərdən keçmişdir. XX əsrin 90-cı illərin əvvəllərində münasibətlər məhdud əlaqələrlə səciyyələnirdi. 1992-ci ilin mayından 1993-cü ilin ortalarınadək Qərbmeyilli siyasət yürütmək cəhdləri müstəqillik üçün ciddi təhlükələr yaradırdı.

1993-cü ildə yenidən hakimiyyətə gələn Heydər Əliyev dünyanın

bütün dövlətləri ilə bərabərhüquqlu və qarşılıqlı faydalı əlaqələrin qurulmasını prioritet istiqamət kimi irəli sürərək regionda yerləşən iri güc mərkəzləri ilə münasibətləri yaxşılaşdırdı, eyni zamanda Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə inkişaf edən əlaqələrinin daha praqmatik xarakter almasını təmin etdi. Prezident Heydər Əliyev ilk xarici səfərini 1993-cü ilin dekabrında Fransaya etdi. Azərbaycan və Fransa Respublikaları arasında münasibətlərdən danışan Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev deyirdi: *"Biz Fransa ilə yaxşı dostluğa malik olmaq, Fransa-Azərbaycan münasibətlərini bütün istiqamətlərdə inkişaf etdirmək istəyirik. ...Əminəm ki, Azərbaycanın simasında Fransa etibarlı, səmimi və şərəfli dosta malik olacaqdır"*[1] .

Heydər Əliyevin ilk səfərini Fransa Respublikasına etməsindən sonra münasibətlərdəki soyuqluq tədricən aradan qalxdı. Səfərin nəticəsində Azərbaycan dövləti başlıca problemi olan Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinə yanaşmada Fransanın mövqeyinə kənar amillərin, erməni lobbisi və diasporunun təsirinin azaldılmasına nail oldu. Bu səfər qarşılıqlı münasibətlərdə yeni bir səhifə açdı. Tərəflər bütün sahələrdə əməkdaşlıq etməyə hazır olduqlarını bildirdi. Səfər Azərbaycan Respublikasının nəinki Fransa, ümumilikdə Qərbi Avropa ölkələri ilə əlaqələrində intensiv inkişafın başlanğıcını qoydu. "Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında" memorandum imzalandıqdan sonra iki ölkə arasında əməkdaşlığın qurulması və inkişaf etdirilməsi istiqamətində vacib addımlar atıldı. O zamana qədər Azərbaycana münasibətdə ədalətsiz mövqedən çıxış edən Fransanı əməkdaşlığa dəvət edən Heydər Əliyev deyirdi: *"...bütün sahələrdə, ən əvvəl iqtisadiyyat, ticarət, elm, texnika, mədəniyyət sahələrində qarşılıqlı surətdə faydalı əməkdaşlıq işində Azərbaycan bütün dünya üçün, o cümlədən də Fransa üçün açıqdır"*[2].

---

[1] Əliyev, H. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev – Bakı: Azərnəşr, c.8. – 1998. – 488 s., – s.287.

[2] Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fransaya rəsmi səfər zamanı Parisdə mətbuat konfransında bəyanatı – 21 dekabr 1993–cü

Prezident Heydər Əliyevin 1997-ci ildə Fransa Respublikasına növbəti səfəri zamanı aparılan danışıqlar və imzalanan sənədlər Fransanın Azərbaycana olan marağının artması və region siyasətində onun rolunun güclənməsinin qəbul edilməsinin təzahürü idi. İki ölkə arasında münasibətlərin müqavilə-hüquq bazasını təşkil edən bu sənədlər əməkdaşlığın daha da inkişaf etməsinə imkan verdi. Azərbaycan dövlətinin Fransa ilə münasibətlərə xüsusi əhəmiyyət verdiyini 2002-ci il sentyabrın 4-də Prezident Heydər Əliyev Fransa Beynəlxalq Əlaqələr İnstitutunun direktorunu qəbul edərkən belə ifadə etmişdir: *“Biz Fransa ilə münasibətlərimizə xüsusi əhəmiyyət veririk. Bu münasibətləri bundan sonra da inkişaf etdirəcəyik”*[3].

Bu baxımdan, iki ölkə arasında qarşılıqlı münasibətlərin müqavilə-hüquq bazasının, siyasi, diplomatik əməkdaşlığının inkişaf dinamikasını araşdırmaq aktualdır.

Mövzunun aktuallığını şərtləndirən amillərdən digəri Azərbaycan Respublikasının Fransa ilə bərabərhüquqlu şəkildə bir çox beynəlxalq və regional təşkilatlarda təmsil olunmaları və çoxtərəfli formatda əməkdaşlıq etmələridir. Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi Azərbaycan dövlətinin diplomatiyası qarşısında çox mühüm vəzifələr qoymuşdu. Bu mənada 1991-2003-cü illərdə ATƏT-in Minsk qrupunun həmsədr ölkələrindən biri olan Fransa Respublikasının siyasətinin araşdırılması elmi-siyasi aktuallıq kəsb edir.

Minsk qrupunun həmsədr ölkəsi olan Fransanın fəaliyyəti tədqiq edilən illərdə münaqişənin ədalətli həllinə gətirib çıxarmadı. 2020-ci ilin sentyabr-noyabr aylarında baş verən 44 günlük müharibədə Azərbaycan işğalçı Ermənistan üzərində qələbə qazandı, ərazilərini işğaldan azad etdi. Hərbi əməliyyatlar aparılan günlərdə Fransa həmsədrlik mandatına zidd mövqe nümayiş etdirdi. Eyni zamanda, heç bir faktı söyləmədən, uydurma xəbərlərə əsaslanaraq

---

il: [Elektron resurs] / URL: http://lib.aliyev heritage.org/az/7068289.html. – istifadə tarixi: 24.11.2018-ci il.

[3] Azərbaycan – Fransa əlaqələri yüksək səviyyədədir və dostluq xarakteri daşıyır // Azərbaycan. – 2002, 5 sentyabr.

Azərbaycana xarici ölkələrdən muzdlu döyüşçülər gətirməsi barədə böhtan atdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin faktların verilməsinə dair tələbləri qarşısında Fransa tərəfi bir söz söyləyə bilmədi. Fransa müharibədən sonra hər vəchlə özünün əvvəlki təsir imkanlarını qaytarmağa, Ermənistan üçün əlverişli vəziyyət yaratmağa, gözdən düşürmüş Minsk qrupunun səmərəsiz fəaliyyətini yenidən canlandırmağa çalışdı. Prezident İlham Əliyev Fransanın qərəzli mövqeyi barədə demişdir: *"Biz dəfələrlə Fransa tərəfinə öz iradlarımızı bildirmişik ki, əl çəkin bizdən. Gedin, öz işlərinizlə məşğul olun. Yoxsa Fransa senatının sədri gəlir İrəvana, orada bəyanat verir ki, Fransa Senatı Dağlıq Qarabağı tanıyacaq. Biz Fransanın hökumət orqanlarına bu məsələ ilə müraciət edəndə, öz etirazımızı bildirəndə bizə deyirlər ki, fikir verməyin, bu, qanunvericilik orqanıdır, hakimiyyətin mövqeyini əks etdirmir.*

*Yaxşı, bəs Xarici İşlər Nazirliyi, o da hökumətin mövqeyini əks etdirmir? Bu nə bəyanatlardır? Getsinlər, öz işləri ilə məşğul olsunlar"*[4].

Postmünaqişə dövründə də Fransa Respublikası ermənipərəst siyasətindən əl çəkməmişdir. Belə ki, Fransada 2022-ci il prezident seçkiləri ərəfəsində erməni lobbisinin təsiri altında olan namizədlərdən birinin Qarabağa qanunsuz səfəri Azərbaycan tərəfindən qəti etirazla qarşılandı. Paris şəhərinin merinin İrəvanda erməni separatçılarının başçısı ilə görüşməsi Azərbaycanın xarici siyasətində Fransa ilə əlaqələrin daim diqqət mərkəzində saxlanılmasının nə qədər əhəmiyyətli olduğunu bir daha göstərir.

Problemin öyrənilməsini aktual edən amillərdən biri iki ölkə arasında iqtisadi sahədə əməkdaşlığın qurulması və inkişafı məsələlərinin araşdırılması ilə bağlıdır. Məlum olduğu kimi, Xəzər dənizinin Azərbaycan sektorunda zəngin enerji ehtiyatlarının mövcudluğu və bu ehtiyatlardan səmərəli istifadə edilməsi sahəsində əməkdaşlıq iki ölkə arasında iqtisadi və siyasi münasibətlərin

[4] İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib: [Elektron resurs] / Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, – 2021, 10 may. URL: https://president.az/articles/51454.

inkişafına təkan verir. Xəzəryanı ölkələrin enerji ehtiyatlarından ədalətli şəkildə istifadə etməsi məsələsinin də dünyaya bəyan olunmasında bir çox Avropa dövlətləri kimi Fransanın müəyyən fəaliyyəti olmuşdur. Qeyd etmək lazımdır ki, dissertasiya işinin xronoloji çərçivəsindən kənarda olan 2003-cü ildən sonrakı dövrə nəzər salsaq, Prezident İlham Əliyev tərəfindən iki ölkə arasında əlaqələrin inkişafından ötrü bir sıra addımlar atıldığını görərik.

Dövlət başçısı Azərbaycan-Fransa münasibətlərinin mövcud vəziyyəti və perspektivləri barədə demişdir: *"Əlaqələrimiz çoxşaxəlidir və bir çox sahələri əhatə edir. Hər bir sahə üzrə konkret proqramlar vardır, sənədlər imzalanıbdır. Bu, bizə imkan verəcəkdir ki, Fransa-Azərbaycan əlaqələri çoxşaxəli formada inkişaf etsin. Bu, həm ikitərəfli əlaqələrimiz üçün yeni imkanlar yaradır, regional əməkdaşlıq üçün yeni üfüqlər açır, eyni zamanda, Avropa-Azərbaycan əlaqələrinin inkişafı üçün də Fransa-Azərbaycan əlaqələri çox mühüm rol oynayır. Çünki Fransa Avropanın aparıcı dövlətidir və Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafında əlbəttə ki, Fransanın xüsusi yeri və rolu vardır"*[5].

2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisində Fransa ilə işçi qrupunun rəhbəri, sonra isə Azərbaycan Respublikasının Birinci Vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti kimi Mehriban Əliyeva Azərbaycan-Fransa əlaqələrinin inkişafında geniş fəaliyyət göstərmişdir. Bu sahədəki fəaliyyətinə görə Mehriban Əliyeva Fransa Respublikasının "Şərəf Legionunun Zabiti" dövlət ordeni ilə təltif edilmişdir[6].

Bununla belə, Fransada xüsusən son illərdə hakimiyyətdə olan Prezident Emanuel Makronun ikili standartlardan çıxış etməsi

---

[5] Əliyev, İ. İnkişaf məqsədimizdir: [104 cilddə] / İ.Əliyev. – c.1-26. – Bakı: Azərnəşr, – 2008, – c.26, – s.305.

[6] Mehriban Əliyevanın Fransa Respublikasının "Şərəf Legionunun Zabiti" dövlət ordeni ilə təltif olunma mərasimi keçirilmişdir: [Elektron resurs]/ Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. -2011, 07 oktyabr. URL: https://president.az/articles/3254?locale=en.

ikitərəfli münasibətlərdə bəzi anlaşmazlıqların və gərginliyin yaranmasına səbəb olmuşdur.

Tədqiq edilən illərdə siyasi, iqtisadi, geosiyasi, geostrateji amillər və regional təhlükəsizlik məsələləri Azərbaycan – Fransa münasibətlərinə təsir etməklə onun tərkib hissəsi olmuşdur. Bu münasibətlərin dərindən tədqiq edilməsi tarixçilərin qarşısında dayanan vəzifələrdən biridir. İlk növbədə qeyd etmək lazımdır ki, iki ölkə arasında siyasi, diplomatik, enerji, iqtisadi-ticarət, mədəni-humanitar və b. sahələrdə əməkdaşlığın inkişafının zəngin tarixi vardır. Bu mənada Azərbaycan Respublikasının digər ölkələrlə ikitərəfli qarşılıqlı münasibətlərində Fransanın əhəmiyyətli yer tutması, eyni zamanda iki dövlət arasında əməkdaşlığın özünəməxsus tərəflərinin indiyədək araşdırılmaması problemin Azərbaycan tarixşünaslığında həm elmi-nəzəri, həm də praktik siyasət baxımdan aktuallıq kəsb etdiyini göstərir. Tədqiqatın aparılması bu sahədə Azərbaycan tarixşünaslığında olan boşluğu doldurmağa xidmət edir.

Beləliklə, yuxarıda sadalanan amillər iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin qurulmasını, müqavilə-hüquq bazasının yaradılmasını, diplomatik-siyasi münasibətlərin inkişaf dinamikasını, enerji, ticarət-iqtisadi, elm, təhsil, mədəniyyət, humanitar sahələrdə əməkdaşlığı, Fransanın Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündə mövqeyini dərindən tədqiq etməyi, elmi ümumiləşdirilmələrin aparılmasını və nəticələrə gəlməyi zəruri etmişdir.

1991-2003-cü illərdə Azərbaycan Respublikası və Fransa Respublikası arasında ikitərəfli münasibətlər Azərbaycan tarixşünaslığında indiyədək ayrıca bir problem kimi kompleks, sistemli şəkildə araşdırılmamışdır. Bununla belə, Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətinin müxtəlif tərəflərinə həsr edilmiş ayrı-ayrı əsərlərdə Fransa Respublikası ilə münasibətlərə toxunulmuşdur. Bu baxımdan M.Qasımlı[7], Ə.Həsənov[8], A.Qocayev

---

[7] Qasımov, M.C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər) / M.Qasımov. – Bakı: Gənclik, – 1996. – 140 s.; Qasımov, M.C. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri) / M.Qasımov. – Bakı: Mütərcim, – 1997. – 124 s.

(Eyvazlı)[9], İ.Hüseynova[10], A.Abbasbəyli[11], E.Əmir-İlyasova[12], Z.Adıgözəlov[13], İ.İsrafilov[14], R.Dadaşovanın[15] əsərlərində ikitərəfli

---

[8] Həsənov, Ə. Azərbaycan Respublikasının xarici siyasətinin əsas vəzifələri, prinsip və istiqamətləri (1991–1997–ci illər) // – Bakı: Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal, – 1998. № 2, – s.49–69; Həsənov, Ə. Azərbaycan – ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru (oktyabr 1991 – avqust 1997) / Ə.Həsənov. – Bakı: Azərbaycan Universiteti, – 1997. – 107 s.; Həsənov, Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991–1996) / Ə.Həsənov. – Bakı: Elm, – 2000. – 368 s.; Həsənov, Ə. Azərbaycanın xarici siyasəti: Avropa ölkələri və ABŞ (1991–1996) / Ə.Həsənov. – Bakı: Azərnəşr, – 1998. – 315 s.; Həsənov, Ə. Heydər Əliyev və Azərbaycanın xarici siyasət prioritetlərinin müəyyənləşməsi / – Bakı: Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi, – 2005. – s.571–582; Həsənov, Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti / Ə.Həsənov. – Bakı: Azərbaycan, – 2005. – 752 s.

[9] Qocayev, (Eyvazlı) A. Müasir–Azərbaycan Fransa münasibətləri / – Bakı: Şuşa, – 1999. – 64 s.

[10] Hüseynova, İ.M. Dövlətçilik naminə / – Bakı: Bakı Universitetinin nəşriyyatı, – 2001. – 286 s.; Hüseynova, İ.M.Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı: Çaşıoğlu, 2008, 670 s.; Hüseynova, İ.M. Heydər Əliyev və Qafqazda sülh prosesi / İ.M.Hüseynova. – Bakı: Çaşıoğlu, – 2008. – 670 s.; Hüseynova, İ.M. Müstəqilliyimizin təminatçısı /İ.M.Hüseynova. – Bakı: Təhsil, – 2003. – 504 s.

[11] Аббасбейли, А.Н. Азербайджан в системе международных организаций / А.Н.Аббасбейли, А.М.Гасанов. – Баку: Азернешр, – 1999. – 256 с.

[12] Эмир-Ильясова, Э.И. Азербайджан в системе международных отношений / Э.И.Эмир-Ильясова. – Баку: 2000; Эмир-Ильясова, Э.И. Геополитика во внешнеэкономических связях Азербайджанской Республики // Э.И.Эмир-Ильясова. – Баку: 2003.

[13] Adıgözəlov, Z. Azərbaycan və Fransa münasibətlərinin formalaşması: tarixi-siyasi aspekt // – Bakı: Tarix və onun problemləri, – 2011. №1, s.138-145, – s.140.

[14] İsrafilov İ. Azərbaycanın XX əsrdə Almaniya və və Fransa ilə əlaqələri / İ.İsrafilov. – Bakı: ADNA, 2006. – 79 s.

[15] Dadaşova R. 1992-1998-ci illərdə Azərbaycan – Fransa əlaqələri // – Bakı: Qanun, –1998, №4, – s.43-48, – s.43.

əməkdaşlığa dair bir sıra məsələlərdən bəhs olunmuş, münasibətlərin xarakterinə dair məlumatlar verilmişdir.

Azərbaycan Respublikasının xarici siyasətinin ən müxtəlif istiqamətlərini müfəssəl şəkildə tədqiq edən M.Qasımlının əsərləri problemin öyrənilməsi baxımından daha çox diqqəti cəlb edir. Onun tədqiqatlarında Azərbaycan Respublikasının xarici siyasətinin prinsipləri, məqsəd və vəzifələri, beynəlxalq təşkilatlarla, o cümlədən də Fransa Respublikası ilə əlaqələri təhlil edilmiş, əməkdaşlığın mümkün yolları və perspektivləri araşdırılmışdır. Xüsusən müəllifin zəngin arxiv materialları və sənədli mənbələr əsasında yazdığı və 2015-ci ildə nəşr edilmiş iki cildlik "Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003-cü illər)" adlı fundamental əsərində Fransa Respublikası ilə siyasi, diplomatik əməkdaşlıq məsələləri mötəbər mənbələr əsasında araşdırılmışdır[16].

Ə.Həsənovun əsərlərində Azərbaycan Respublikasının xarici siyasətinin müxtəlif məsələləri, o cümlədən ayrı-ayrı dövlətlərlə ikitərəfli əməkdaşlığı araşdırılmışdır. Azərbaycan Respublikası və Fransa Respublikası arasında ikitərəfli münasibətlərin öyrənilməsi baxımından müəllifin əsərləri əhəmiyyətlidir.

A.Qocayevin (Eyvazlı) kitabçasında iki ölkə arasında münasibətlərin yaradılması və ilk mərhələləri öyrənilmişdir. Müəllif Fransa Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin müqavilə-hüquq bazasının formalaşmasını, Fransanın Qafqazdakı maraqlarını və ATƏT-in Minsk qrupunun həmsədrlərindən birinə çevrilmək istiqamətində fəaliyyətinin əsas məqsədlərini izah etmişdir. Qarşılıqlı iqtisadi, mədəni və humanitar sahələrdə əməkdaşlıq məsələlərinə diqqət yetirilmişdir. Nəşrdə tədqiqat işi üçün faydalı olan məlumatlar da öz əksini tapmışdır.

Yuxarıda adları qeyd edilən A.Abbasbəyli və E.Əmir-İlyasovanın kitablarında Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sistemində tutduğu yer, xarici siyasətinin istiqamətləri və prinsipləri, beynəlxalq və regional təşkilatlarda iştirakı, digər ölkələr ilə əlaqələri araşdırılmışdır. 1991-2000-ci illərdə Fransa-Azərbaycan

---

[16] Qasımlı, M.C. Azərbaycanın xarici siyasəti (1991–2003): [2 cilddə] / M.Qasımlı, – Bakı: Mütərcim, – c.1. – 2015. – 648 s.; c.2. – 2015. – 664 s.

münasibətlərinin yer aldığı bu tədqiqatlarda ikitərəfli əməkdaşlığın bir sıra özünəməxsusluqları və inkişaf perspektivlərini şərtləndirən başlıca amillər göstərilmişdir.

İ.Hüseynovanın kitabları iki dövlət arasındakı əlaqələrə həsr olunmasa da Qafqaz regionunda baş verən mühüm hadisələr, Azərbaycanın başlıca problemi olan Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi və ona dair iri dövlətlərlə aparılan siyasi danışıqlar və qarşılıqlı əlaqələr öz əksini tapmışdır.

Dissertasiya işi yazılarkən problemin bu və ya digər tərəflərinə həsr edilmiş məqalələrdən də istifadə edilmişdir.

Z.Adıgözəlovun məqaləsində Azərbaycan-Fransa münasibətlərinin formalaşmasının tarixi - siyasi aspektlərdən təhlil edilmişdir. Qeyd etmək lazımdır ki, mövzuya müəllifin yanaşması məhdud olmuş, ikitərəfli münasibətlərin mümkün inkişaf meyilləri ilə bağlı qiymətləndirmələr səthi şəkildə aparılmışdır.

Ş.Mustafayevanın məqaləsində Cənubi Qafqazda sülhün bərqərar olunmasında Fransanın mümkün fəaliyyət istiqamətləri təhlil edilmişdir. Müəllif Fransanın bu roluna daha çox Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, ərazilərini işğal etməsi nəticəsində yaranmış münaqişə kontekstində yanaşmışdır[17].

O.Nəsibli məqaləsində Azərbaycan və Fransa arasında humanitar əlaqələrə dair təhlillər aparmışdır. Məqalə tədqiqatımızın xronoloji çərçivəsindən kənarda qalan illəri əhatə etsə də müqayisəli təhlillərin aparılması baxımından müəyyən maraq doğurur[18].

Z.Məmmədov və R.Əliyeva 1995-2015-ci illərdə Qərbi Avropa dövlətləri ilə Azərbaycan Respublikası arasında parlamentlərarası

---

[17] Mustafaeva, S. The role of France in establishing peace in the South Caucasus (in the context of the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict) / S.Mustafaeva // Scientific and Theoretical Almanac Grani, – 2018, No. 21(3). – p. 108-115.

[18] Насибли, О.К. Развитие гуманитарного сотрудничества Азербайджанской и Французской Республик в новейшее время // – Баку, Colloquium-journal, – 2019, № 10-4, – с.17-21.

əlaqələrinə həsr etdikləri məqalədə Fransa ilə qurulan əlaqələrdən də bəhs etmişlər[19].

G.Abdullayeva Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında ticarət əlaqələrinin inkişafı məsələlərindən bəhs etdiyi məqaləsində Fransa-Azərbaycan ticarət əlaqələrinə toxunmuşdur[20].

S.S.Quliyevanın məqalələrində Azərbaycan Respublikası və Fransa Respublikası arasında münasibətlərin geniş spektri mənbə və ədəbiyyatlar əsasında araşdırılmışdır[21].

Dissertasiya işi yazılarkən Azərbaycan və Fransa arasında əlaqələrin tarixi köklərinə dair məsələlərdən bəhs edən əsərlərə də

---

[19] Mammadov, Z. Aliyeva, R. The inter-parliamentary relations among the Republic of Azerbaijan and Western European states (1995-2015) // İTOBİAD KONGRE, II. International Congress of Human and Social Science Researches, –2019, – p. 1315-1322.

[20] Abdullayeva, G. Issues of extension of trading relations between Azerbaijan and The European Union // 55th International Scientific Conference on Economic and Social Development – Baku, 18-19 June, – 2020, – p. 217-226.

[21] Quliyeva, S.S. Azərbaycan və Fransa Respublikaları arasında elm-təhsil sahəsində əməkdaşlıq (XX əsrin 90–cı illəri) // Müsəlman Şərqində ilk parlamentli respublika, Azərbaycan Xalq Cumhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları, – 21-23 may 2018, – Bakı. – s.742-744; yenə onun. Cənubi Qafqaz Fransanın xarici siyasətində // Qafqaz böyük sarsıntılar şəraitində: tarixi təcrübə, müasir dövr və prespektivlər. Respublika Elmi konfransı. Tezislər. – Bakı, – 04 dekabr, 2017. – s. 60-61; yenə onun. Fransanın Cənubi Qafqaz siyasəti və Dağlıq Qarabağ problemi // Qafqazşünasların I Beynəlxalq Forumu. 17-18 aprel 2017. – Bakı, 2 kitabda:1 ci kitab. – Bakı: MTM İnnovation, –2017, s. 263-267; yenə onun. XX əsrin sonu – XXI əsrin əvvəllərində Azərbaycan Respublikasi ilə Fransa Respublikası arasında mədəniyyət sahəsində əməkdaşlıq // – Bakı: Geostrategiya. – 2019, № 04(52), – s. 57-63; Кулиева, С.С. Сотрудничество в области энергетики между Азербайджанской Республикой и Французкой Республики // – Москва: Евразийский Союз Ученых (ЕСУ). – 2019, №6(63), 9 часть, – с. 13-17.

diqqət yetirilmişdir. Bu baxımdan, M.Qasımlı[22], Y.Mahmudov[23], və K.Şükürovun həmmüəllif olduğu əsərinə[24], S.Onullahi[25] və başqa tarixçilərin kitab və məqalələrinə müraciət edilmişdir.

Problem araşdırılarkən xarici ölkə tədqiqatçılarından K.Kasım[26], A.Taşkaya[27], C.Uliyamson[28], F.Uillem[29], P.P.Timofeeyev[30], P.Pavlova[31], M.Moradi[32], Z.Hətəmzadın[33] tədqiqatlarından istifadə

---

[22] Qasımov, M.C. Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik–siyasi münasibətlər) /M.C.Qasımov. –Bakı: Qanun, – 1998. – 360 s.

[23] Махмудов, Я.М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с европейскими странами (II половина XV – нач. XVII вв.) /Я.Махмудов. – Баку: Издательство Бакинского Университета, –1991. – 264 s.

[24] Mahmudov, Y. Azərbaycan beynəlxalq münasibətlər və diplomatiya tarixi. Dövlətlərarası müqavilələr və digər xarici siyasət traktatları (1639-1828): [4 cilddə] / Y.Mahmudov, K.Şükürov. – Bakı: c.1. 2009, – 512 s.

[25] Onullahi, S.M. Jan Battist Tavernye Naxçıvan haqqında // – Bakı: Bakı Universiteti Xəbərləri, – 1999. № 3, – s.87-93.

[26] Kamer, Kasım. Azerbaycan'ın dış politikası /Emine Gürsoy–Naskali ve Erdal Şahin (Der.) / Bağımsızlıklarının 10 Yılında Türk Cumhuriyetleri. – Haarlam, – Hollanda: SOTA, – 2001, – s. 436-437.

[27] Taşkaya, A. Jean Baptiste Tavernier, Tavernier Seyahatnamesi (kitap tanıtımı) // Tarih İncelemeleri Dergisi, Cilt XXVI, – 2011. Aralık, № 2, – s.639-641.

[28] Williamson, C. Safavid Persia Through the Eyes of French Travellers // The La Trobe Journal, №91, – 2013 june, – pp. 65-75.

[29] Willem, F. Iran and the World in the Safavid Age / F.Willem, H.Edmund. – I.B.Tauris, – 2015. – 544 p.

[30] Тимофеев П.П. Политика Франции на постсоветском пространстве // Современная Европа. 2013. №2 (54): [Электронный ресурс] / URL: https://cyberleninka.ru/article/n/politika-frantsii-na-postsovetskom-prostranstve (дата обращения: 06.03.2021).

[31] Павлова, П.М. Роль Франции в урегулировании Нагорно-Карабахского конфликта // Сборник научных статей 30-летие конфликта в Нагорном Карабахе. – Москва: Российский университет дружбы народов. – 2019.– с. 97-104.

[32] Moradi, M. Fəranse və xəlice fars // Tarixe rəvabete xareci. – Tehran, – 1373. № 171, – s. 97-121.

olunmuşdur. Adları qeyd edilən müəlliflərin əsərlərində Fransa və Azərbaycan Respublikasının xarici siyasət məsələlərinin müxtəlif tərəfləri araşdırılmışdır.

Ümumiyyətlə, həm Azərbaycanda, həm də xarici ölkələrdə nəşr edilmiş əsərlərin öyrənilməsi göstərir ki, Azərbaycan Respublikası və Fransa Respublikası arasında diplomatik-siyasi, ticarət-iqtisadi, elmi-texniki, mədəni və humanitar sahələrdə əməkdaşlıq məsələlərinə qismən toxunulsa da 1991-2003-cü illərdə ikitərəfli münasibətlər ayrıca kompleks tədqiqat obyekti olmamışdır və ona görə problemin tədqiqi aktuallıq kəsb edir.

Tədqiqat aparılarkən geniş mənbələrdən istifadə edilmişdir. Bir sıra sənədlər və dövrü mətbuat materialları elmi-dövriyyəyə gətirilmişdir. Azərbaycan Respublikası və Fransa Respublikası rəhbərlərinin, rəsmi nümayəndələrin nitq və müsahibələrinin, iki ölkə arasında keçirilən rəsmi görüşlərin materiallarının, hər iki dövlətin müxtəlif nazirlikləri arasında keçirilmiş ikitərəfli görüşlərdə imzalanan sənədlərin, Azərbaycan Respublikasının Fransa Respublikasındakı səfirliyinin və diaspor təşkilatlarının, qəzet və jurnalların, internet saytlarının materiallarının kontent və ivent analizi aparılmışdır.

Azərbaycan və Fransa arasında münasibətlərin araşdırılmasında ən mötəbər mənbə Ümummilli lideri Heydər Əliyevin çıxış, nitq, müraciət və müsahibələrinin toplandığı "Müstəqilliyimiz əbədidir" çoxcildliyi olduğundan tədqiqat aparılarkən ondan geniş istifadə edilmişdir. Çoxcildliyə daxil edilmiş materiallar Azərbaycan Respublikası və Fransa Respublikası arasında münasibətlərin təməllərini, əməkdaşlığın başlıca istiqamətlərini və formalarını, inkişaf dinamikasını öyrənmək baxımından əhəmiyyətlidir[34].

2003-cü ildən sonra iki ölkə arasında münasibətlərin vəziyyətini öyrənmək baxımından Azərbaycan Respublikasının Prezidenti İlham

---

[33] Hətəmzad, Z. Səfəvi və Fransa dövlətlər arasında əlaqələr // – Bakı: Tarix və onun problemləri. – 2013. № 2, – s.401-406.

[34] Əliyev, H. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – c.1-46, – Bakı: Azərnəşr, – 1997-2013.

Əliyevin əsərləri[35], Fransa Respublikasına səfərləri zamanı etdiyi nitq və çıxışları, verdiyi müsahibələr mühüm mənbədir. Onlarda Fransa ilə münasibətlərin vəziyyəti, potensialı və inkişaf perspektivləri öz əksini tapmışdır.

Dissertasiya işi yazılarkən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin nəşr edilmiş arxiv sənədlərindən, Azərbaycan və Fransa arasında imzalanmış dövlətlərarası və hökumətlərarası müqavilə və sazişlərdən, Fransa Respublikasının Azərbaycan Respublikasında səfirliyinin materiallarından istifadə edilmişdir. Azərbaycan Respublikası və Fransa dövləti arasında əməkdaşlığa dair materiallar "Azərbaycan", "Xalq qəzeti" qəzetlərində dərc edildiyi üçün onlara da müraciət olunmuşdur. Dissertasiya işinin yazılmasında rəsmi dövlət və hökumət təşkilatlarının İnternet saytlarındakı materiallarından da geniş istifadə edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti 1991-2003-cü illərdə Azərbaycan Respublikası və Fransa Respublikası arasında qarşılıqlı münasibətlərdir.

Tədqiqatın predmeti göstərilən xronoloji çərçivədə Azərbaycan Respublikası və Fransa Respublikası arasında ikitərəfli münasibətləri şərtləndirən amilləri, qarşılıqlı münasibətlərin müqavilə-hüquq bazasının yaradılmasını, diplomatik-siyasi, enerji, ticarət-iqtisadi,elmi-texniki, mədəni-humanitar sahələrdə əlaqələrin qurulmasını və səciyyəvi cəhətlərini, həmçinin Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsində Fransanın mövqeyinin araşdırılmasıdır.

Dissertasiya işinin xronoloji çərçivəsi 1991-2003-cü illəri əhatə edir. Xronoloji çərçivənin başlanğıcının 1991-ci il götürülməsi Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi və müstəqil beynəlxalq fəaliyyət sahəsində ilk addımlar atması ilə əlaqədardır. Xronoloji çərçivənin sonunun 2003-cü il olaraq göstərilməsi həmin ildə Azərbaycan Respublikasında Prezident seçkilərinin keçirilməsi ilə bağlıdır.

---

[35] Əliyev, İ. İnkişaf məqsədimizdir: [134 cilddə] / İ.Əliyev. – c.1-134. – Bakı: Azərnəşr, – 2008-2023.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi Azərbaycan Respublikası və Fransa Respublikası arasında 1991-2003-cü illərdə qarşılıqlı münasibətlərin bütün kompleksini elmi-tarixi baxımdan araşdırılmasıdır. Qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı konkret vəzifələrin yerinə yetirilməsinə cəhd edilmişdir:

– Azərbaycan Respublikası və Fransa Respublikası arasında münasibətlərə dair mənbə və ədəbiyyatları toplamaq, öyrənmək, sistemləşdirmək, şərh, təhlil, müqayisəli və tənqidi təhlil etmək, ümumiləşdirmələr aparmaq;

– iki ölkə arasında siyasi, diplomatik münasibətləri şərtləndirən amilləri, tarixi şəraiti şərh və təhlil etmək;

– qarşılıqlı maraqların formalaşmasına təsir edən başlıca amilləri təhlil edərək qiymətləndirmək;

– siyasi, diplomatik əlaqələrin qurulması və inkişafını araşdırmaq;

– ticarət-iqtisadi, elmi-texniki, təhsil, mədəniyyət və humanitar sahələrdə əməkdaşlığın qurulmasını, inkişaf dinamikasını öyrənmək və perspektivlərini müəyyənləşdirmək;

– Xəzər dənizinin Azərbaycan sektorundakı karbohidrogen ehtiyatlarının iki ölkə arasında iqtisadi əməkdaşlığın inkişafına təsir imkanlarını tədqiq etmək;

– Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinə Fransa Respublikasının münasibətini araşdırmaq;

– Azərbaycan Respublikası və Fransa Respublikası arasında ikitərəfli münasibətləri daha da inkişaf etdirmək üçün elmi əsaslandırılmış təkliflər irəli sürmək.

**Tədqiqat metodları.** Problem araşdırılarkən tarixi tədqiqatlarda qəbul edilmiş tarixi-xronoloji prinsip, fakt və məlumatların toplanması, sistemləşdirilməsi, kompleks şəkildə tədqiqata cəlb edilməsi, məsələlərin şərhi, müqayisəli və tənqidi təhlili metodlarından istifadə edilmiş, elmi-nəzəri ümumiləşdirmələr aparılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqatın aktuallığını nəzərə alaraq aşağıdakı müddəalar müdafiəyə çıxarılmışdır**:**

– Azərbaycan Respublikası və Fransa Respublikası arasında siyasi, diplomatik münasibətləri şərtləndirən amillərin təhlili aparılmışdır. İrəli sürülən ilk müddəa ondan ibarətdir ki, tədqiq olunan xronoloji çərçivədə iki ölkənin qarşılıqlı münasibətlərinə Azərbaycanın iqtisadi və təhlükəsizlik maraqları, Fransanın isə iqtisadi maraqları və geosiyasi niyyətləri əhəmiyyətli təsir göstərmişdir;

– iki ölkə arasında siyasi, diplomatik münasibətlər heç də hər zaman yüksələn xətlə inkişaf etməmiş, 1992-1993-cü illərdə bir sıra problemlər yaranmışdır. 1995-1997-ci illəri çevik dəyişikliklər, 1997-2003-cü illəri əhatə edən mərhələni isə ləng yüksəliş mərhələsi kimi müəyyən etmək mümkündür;

– 1993-cü ilin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ilk xarici səfərini Fransa Respublikasına etməsinin səbəbləri təhlil edilmişdir;

– ticarət-iqtisadi, elmi-texniki, təhsil, mədəniyyət və humanitar sahələrdə əməkdaşlığı perspektivləri qiymətləndirilsə də obyektiv və subyektiv səbəblərdən bu imkanların reallaşdırılması istiqamətində addımlar tam səmərəli olmamışdır.

– Xəzər dənizinin Azərbaycan sektorundakı karbohidrogen ehtiyatları iki ölkə arasında iqtisadi əməkdaşlığın inkişafına ciddi təsir göstərmiş, bir çox siyasi məsələlərdə Fransanın ədalətsiz mövqeyinin nisbi obyektivliyə doğru dəyişməsinə səbəb olmuşdur.

– Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinə münasibətdə Fransa Respublikasının mövqeyi, erməni lobbisinin və diasporunun təsiri altında ədalətsiz, qərəzli və birtərəfli olmuşdur. Azərbaycan dövlətinin fəal siyasi və iqtisadi diplomatiyası, beynəlxalq hüquqa əsaslanan mövqeyi bəzi hallarda Fransanı konstruktiv mövqeyə yaxınlaşmağa məcbur etmişdir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

– Vətən tarixşünaslığında ilk dəfə olaraq 1991-2003-cü illərdə Azərbaycan Respublikası və Fransa Respublikası arasındakı siyasi, diplomatik, enerji, ticarət-iqtisadi, elmi-texniki, təhsil, mədəni və humanitar əməkdaşlıq məsələləri zəngin fakt və materialların

əsasında tədqiq edilmiş, mövcud meyillər müəyyənləşdirilmiş və qiymətləndirilmiş, belə bir qənaətə gəlinmişdir münasibətlərin qurulmasına və inkişafına tarixi keçmiş, qarşılıqlı maraqlar təsir etmiş və əməkdaşlığın yolu hamar olmamışdır;

– Azərbaycan Respublikası və Fransa Respublikası arasında siyasi, diplomatik əlaqələrin qurulması və inkişafı, o cümlədən qarşılıqlı maraqları şərtləndirən amillər zəngin fakt və materiallarla əsaslandırılmışdır;

– iki ölkə arasında iqtisadi əməkdaşlığın vəziyyəti və perspektivləri faktlar əsasında tədqiq edilmiş, əməkdaşlığın səviyyəsinin tərəflərin imkanlarından aşağı olmasının səbəbinin Fransanın ermənipərəst mövqeyi ilə bağlı olduğu qənaətinə gəlinmişdir;

– Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə və işğal siyasətinə Fransa Respublikasının münasibəti faktiki materiallar əsasında araşdırılmışdır. Erməni lobbisinin və bu ölkədə yaşayan ermənilərin Fransa hakimiyyətinə təsirinin güclü olduğu göstərilmişdir;

– ikitərəfli münasibətlərin nəticələri göstərilmiş və elmi ümumiləşdirmələr aparılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin əsas müddəalarından və nəticələrindən istifadə oluna bilər:

– dərs vəsaiti və dərsliklərin hazırlanmasında;

– ali təhsil müəssisələrində mühazirələrin oxunmasında və seminar məşğələlərinin keçirilməsində;

– magistr, dissertant və doktorantların elmi tədqiqat işlərinin aparılmasında;

– Azərbaycan Respublikasının xarici siyasətinə həsr edilmiş ümumiləşdirilmiş əsərlərin yazılmasında;

– Azərbaycan Respublikasının Fransa Respublikası ilə əməkdaşlığında iştirak edən müvafiq nazirlik, komitə və idarələrin fəaliyyətində;

– Azərbaycan dövlətinin xarici siyasət fəaliyyətinin təbliğində;

– Fransadakı Azərbaycan diaspor təşkilatlarının fəaliyyətində.

**Dissertasiya işinin aprobasiyası və tətbiqi.** Dissertasiya işinin

əsas məzmunu müəllifin Azərbaycanda və xarici ölkələrdə çap etdirdiyi məqalə və tezislərdə əksini tapmışdır. Mövzu ilə bağlı olaraq dissertant respublika və beynəlxalq elmi konfranslarda məruzələr etmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi Giriş – 29190 işarə, I Fəsil – 95212 işarə, II Fəsil – 80083 işarə, III Fəsil – 30215 işarə, Nəticə – 11973 işarə və istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla cəmi – 246 min 673 işarədən ibarətdir.

## II. DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılmış, istifadə edilmiş mənbə və ədəbiyyatlar geniş təhlil edilmiş, tədqiqatın məqsəd və vəzifələri, elmi-nəzəri və praktik əhəmiyyəti müəyyənləşdirilmiş, metodoloji əsası, elmi yeniliyi və müdafiəyə çıxarılan əsas müddəalar göstərilmişdir.

Dissertasiyanın **"Azərbaycan Respublikası və Fransa Respublikası arasında siyasi-diplomatik münasibətlərin qurulması və inkişafı"** adlanan birinci fəsli iki paraqrafdan ibarətdir. **"Azərbaycan-Fransa münasibətlərini şərtləndirən amillər"** adlanan birinci paraqrafda iki ölkə arasında münasibətlərin və onu səciyyələndirən amillər tədqiq edilmişdir. Qeyd olunmuşdur ki, SSRİ-nin süqutundan sonra Fransanın Cənubi Qafqaza marağı ilk növbədə, regionun əlverişli coğrafi-siyasi mövqeyi ilə müəyyən edilirdi. Bu region bir tərəfdən Avropa, digər tərəfdən Yaxın Şərq, Rusiya və İran arasında yerləşdiyinə görə bir neçə baxımdan Fransa üçün önəmli idi: birincisi, Cənubi Qafqaz ölkələrinin, xüsusən də Azərbaycanın tranzit kimi böyük əhəmiyyəti var idi. İkinci tərəfdən

bir çox Avropa dövlətləri qonşu regionlardakı böhranların həlli üçün bölgəni mümkün strateji tramplinlərdən biri kimi görürdülər[36].

1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının xarici siyasətində mühüm yerlərdən birini Fransa Respublikası ilə münasibətlərin qurulması və inkişafı tutdu. Fransa Respublikası Azərbaycan Respublikasının dövlət müstəqilliyinini tanıdıqdan sonra iki ölkə arasında diplomatik əlaqələr quruldu. [37]Azərbaycan Respublikası və Fransa Respublikası arasında münasibətlərinin qurulmasına bir sıra amillər təsir edirdi. İlk növbədə, təbii, tarixi amillər münasibətlərin qurulmasını şərtləndirirdi. Azərbaycanın strateji cəhətdən əlverişli coğrafi mövqeyə malik olması, Avropa ilə Asiya arasında körpü rolunu oynaması və İpək yolunun üstündə yerləşməsi Avropa dövlətlərinin diqqətini çəkirdi, qədim, orta əsrlər, yeni və ən yeni dövrlərdə bu maraq həmişə üstünlük təşkil etmişdi [38].

Fransa ilə qurulan əlaqələr dövlət müstəqilliyinin ilk illərində heç də asan, ardıcıl və dinamik olmamışdır. Buna əsasən iki amil təsir göstərirdi: birincisi, Fransada yaşayan ermənilərin və erməni lobbisinin Azərbaycana qarşı çirkin təbliğat fəaliyyəti; ikincisi ermənilərin pozucu fəaliyyətindən narahat olan bir sıra siyasi qüvvələrin məsələyə qeyri-peşəkar yanaşması idi.

Birinci fəslin ikinci paraqrafı "**Qarşılıqlı münasibətlərin müqavilə-hüquq bazasının yaradılması və inkişafı**" adlanır. Məlumdur ki, dövlətlər arasında digər sahələrdə əməkdaşlığın qurulması və inkişafı üçün ilk növbədə dövlət müstəqilliyinin tanınması, diplomatik əlaqələrin qurulması, münasibətlərin müqavilə-hüquq bazasının formalaşdırılması böyük əhəmiyyətə

---

[36] Тимофеев П.П. Политика Франции на постсоветском пространстве // Современная Европа. 2013. №2 (54): [Электронный ресурс] / URL: https://cyberleninka.ru/article/n/politika-frantsii-na-postsovetskom-prostranstve (дата обращения: 06.03.2021).

[37] Qasımlı, M.C. Azərbaycanın xarici siyasəti (1991–2003): [2 cilddə] / M.Qasımlı, – Bakı: Mütərcim, – c.1. – 2015. – 648 s.; – c.2. – 2015. – 664 s., – s.53.

[38] Qasımov, M.C. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri) / M.Qasımov. – Bakı: Mütərcim, – 1997. – 124 s., – s.48.

malikdir. Bu mənada Fransa Respublikası ilə münasibətlərin müqavilə-hüquq bazasının formalaşdırılması əhəmiyyət daşıyırdı.

Qarşılıqlı münasibətlərin müqavilə-hüquq bazasının yaradılması əsasən aşağıdakı mərhələlərdən keçmişdir:

Birincisi, 1992-ci ilin yanvarından 1992-ci ilin iyununa qədər. Bu mərhələnin başlıca xüsusiyyəti beynəlxalq hüquq normalarına əsaslanan ilk əlaqələrin qurulmasıdır.

İkincisi, 1992-ci ilin iyunundan 1993-cü ilin iyununa qədər. Bu mərhələdə Fransadakı erməni təşkilatlarının lobbisi və icmasının təsiri altında əlaqələrdə durğunluq hökm sürmüşdür.

Üçüncüsü, 1993-cü ilin iyunundan 1997-ci ilin yanvarına qədər. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilk rəsmi xarici səfərini Fransa Respublikasına etmişdir. Azərbaycanın xarici siyasətində praqmatik xəttin üstün istiqamət kimi müəyyənləşdirildiyi bu mərhələdə Fransa Respublikası ilə əlaqələrin möhkəm təməllər üzərində qurulmasına çalışılmış, Azərbaycan həqiqətlərinin Fransaya çatdırılması, erməni təşkilatları, lobbisi və icmasının təsirlərinin müxtəlif siyasi kombinasiyalarla zəiflədilməsinə cəhdlər edilmiş, Fransa ilə enerji, ticarət-iqtisadi və digər sahələrdə əməkdaşlığın əlaqələrin müqavilə-hüquq bazası yaradılmışdır.

Dördüncüsü, 1997-ci ilin yanvarından 2001-ci ilə qədər. Bu mərhələdə Azərbaycan və Fransa arasındakı əlaqələr inkişaf etmiş, iki dövlət arasında qarşılıqlı etimad mühiti artmış, müxtəlif qüvvələrin təsiri altında əvvəllər Azərbaycana qarşı mənfi münasibətdə olan Fransa dövləti Azərbaycanın Avropa Şurasında tam üzvlüyü məsələsini müdafiə etmiş, Minsk qrupunun həmsədri kimi fəaliyyətini artıraraq və Azərbaycanın mənafelərinə zidd olan bəzi məsələlərdə əvvəlki ədalətsiz mövqeyindən nisbətən geriyə çəkilmişdir.

Beşinci, Azərbaycan Respublikasının 2001-ci il yanvar ayının 25-də Avropa Şurasına üzv qəbul olunmasından sonra Azərbaycan-Fransa əlaqələri keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. 2001-ci ildə qarşılıqlı siyasi, iqtisadi əlaqələr xüsusilə intensiv və zəngin olmuş, yeni sənədlər imzalanmış, münasibətlərin müqavilə-

hüquq əsasları möhkəmləndirilmişdir.

Dissertasiya işinin ikinci fəsli **“Enerji, ticarət-iqtisadi, elm, təhsil mədəniyyət və humanitar sahələrdə əməkdaşlıq”** adlanır. Fəslin **“Enerji, ticarət-iqtisadi əməkdaşlıq və əhəmiyyəti”** adlanan birinci paraqrafında Azərbaycan Respublikası və Fransa Respublikası arasında enerji, ticarət-iqtisadi əməkdaşlıq məsələləri araşdırılmışdır. Qeyd edilmişdir ki, iki ölkə arasında siyasi münasibətlərin inkişafı və imzalanan sənədlər bu sahələrdə də əməkdaşlığın qurulmasına təkan verdi. Belə əməkdaşlıq sahələrindən biri enerji oldu. Fransa Respublikası enerji ehtiyaclarının ödənilməsinin şaxələndirilməsi üçün Azərbaycan Respublikası ilə əməkdaşlıq qurmağı və dərinləşdirməyi strateji maraqları baxımından faydalı hesab edirdi. Bu sahədə əməkdaşlıq hər iki ölkənin ümumi maraqlarına cavab vermişdir.

Azərbaycan dövlətinin Fransa Respublikası ilə enerji sahəsində əməkdaşlığı məsələləri 1993-cü ilin dekabr ayında Prezident Heydər Əliyevin Parisə rəsmi səfəri zamanı müzakirə edildi. Danışıqlar zamanı Fransa dövləti neft sahəsində əməkdaşlığa tamamilə tərəfdar çıxaraq Azərbaycanın enerji strategiyasını müdafiə etdi.

1994-cü il sentyabrın 20-də Xəzər dənizinin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq” və dərinsulu “Günəşli” yatağında neftin birgə işlənməsi və pay bölgüsü haqqında Bakıda “Əsrin müqaviləsi” imzalandıqdan sonra Fransa özünün neft şirkətlərinin Azərbaycan karbohidrogen ehtiyatlarının istismarı prosesində iştirak etməsini təmin etmək üçün bəzi tədbirlər gördü. Fransa Respublikasının Baş naziri Eduard Balladur 1995-ci ilin martında Azərbaycan hökumətinə müraciət edərək enerji sahəsində əməkdaşlıq etmək niyyətini bildirdi. Enerji sahəsində əməkdaşlıq məsələləri iki ay sonra Prezident Heydər Əliyev və “Elf” şirkətinin prezidenti F.Jaffre Parisdə müzakirə etdilər. İyul ayında isə ARDNŞ və “Elf” tezliklə neft alyansı yaratmaq barədə razılığa gəldilər[39].

1997-ci il yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Fransa Prezidenti Jak Şirakın iştirakı ilə ARDNŞ-

---

[39] Qocayev, (Eyvazlı) A. Müasir–Azərbaycan Fransa münasibətləri / – Bakı: Şuşa, – 1999. – 64 s., – s.14.

lə Fransanın "Elf Akiten" və "Total" şirkətləri arasında "Lənkəran dəniz" və "Talış dəniz" neft yataqlarının birgə işlənilməsinə dair 25 illik müqavilə imzalandı[40].

Aparılan araşdırmalar göstərir ki, görülən işlərin nəticəsində Azərbaycan Respublikası ilə Fransa Respublikası enerji sahəsində əməkdaşlığın genişləndirilməsi üçün ikitərəfli dialoq yaratmış və bu dialoqun daha da gücləndirilməsinə çalışmışlar[41]. Hər iki ölkə energetika siyasətinə aid təcrübə mübadiləsini həyata keçirmiş, enerji sahəsinin bütün sektorlarında, xüsusən də karbohidrogenlər və bərpa olunan enerji sahələrində qarşılıqlı faydalı əməkdaşlıq şəraitində öz müəssisələri arasında birgə layihələrin inkişafını dəstəkləmişlər.

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının Fransa ilə ticarət-iqtisadi sahədə əlaqələri müstəqil qurulmağa və yeni keyfiyyət halı almağa başladı. Prezident Heydər Əliyevin Fransaya ilk rəsmi səfəri zamanı imzalanan sənəd digər sahələrdə olduğu kimi, iki ölkə arasında ticarət-iqtisadi əməkdaşlığı da nəzərdə tuturdu. Həmin səfərdə Fransanın işgüzar dairələri bilavasitə Azərbaycan Prezidentindən ölkənin zəngin iqtisadi potensialı, aparılan islahatlar, iqtisadiyyatın müxtəlif sahələrinə xarici investisiyaların qoyuluşu haqqında ətraflı məlumatlar aldılar.

1994-cü il iyun ayının 7-də Bakıda səfərdə olan Fransanın "Şpi Batinyol" sənaye şirkətinin prezidenti B.Renye iki ölkə arasında əməkdaşlığa təkan vermək məqsədilə Fransa-Azərbaycan Sənaye Ticarət Palatasının və Fransa sahibkarlarının milli mərkəzi çərçivəsində "Azərbaycana dəstəkləmə qrupu"nun yaradılması

---

[40] Azərbaycan Dövlət Neft Şirkəti ilə Fransanın "Elf Akiten" və "Total" şirkətləri arasında neft müqaviləsinin imzalanma mərasimi: [Elektron resurs] / URL: /https://azertag.az/xeber/ AZARBAYCAN_ DOVLAT_ NEFT_SIRKATI_ILA_ FRANSANIN_ ELF_AKITEN_ VA_ TOTAL _SIRKATLARI_ARASINDA_NEFT_MUQAVILASININ_IMZALAN MA_MARASIMI-804072 13.01.1997; Azerbaijan oil in the world policy. – Baku: Azerbaijan Publishing House, – 1997. – 438 p., – s.288.

[41] Azərbaycan və Fransa arasında enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə edilmişdir: [Elektron resurs] / URL: // https://azertag.az/xeber/ Azerbaycan ve_ Fransa_arasinda_enerji_sahesinde_emekdasliq_ mesele leri_muzakire_edilmisdir-538263.

planlarının həyata keçirilməsində Azərbaycan Respublikasının Prezidentindən kömək istədi. Prezident Heydər Əliyev bu təklifi çox yüksək qiymətləndirdi. Az sonra belə bir qrup yaradıldı[42].

Fransa şirkətlərinin nümayəndələri ölkə regionlarına, o cümlədən Naxçıvan Muxtar Respublikasına səfərlər edərək investisiya imkanlarını qiymətləndirdilər. Azərbaycan Respublikası hökuməti ilə Fransa Respublikası hökuməti arasında investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında saziş, Azərbaycan Respublikası-Fransa Respublikası iqtisadi komissiyasının iclasının protokolu imzalandı[43].

Beləliklə, tədqiq edilən illərdə iki ölkə arasında ticarət-iqtisadi əməkdaşlığın müqavilə-hüquq bazası yaradıldı və möhkəmləndirildi. İmzalanan sənədlərdə ticarət-iqtisadi əməkdaşlığın formaları müəyyənləşdirildi.

Dissertasiya işinin ikinci fəslinin ikinci paraqrafı **“Elm, təhsil, mədəniyyət və humanitar sahələrdə əməkdaşlıq”** adlanır. Məlum olduğu kimi, beynəlxalq mədəni əməkdaşlığın qurulması və genişlənməsi dövlətlərin xarici siyasət strategiyasının həyata keçirilməsinin tərkib hissələrindən biridir. Mədəniyyət diplomatiyası və ya “yumşaq güc” dövlətlərin başlıca məqsədlərinə çatmaqda vasitələrdən biri sayılır. Dünyada sülhün və təhlükəsizliyin təmin olunması üçün mədəni əlaqələrin qurulması böyük əhəmiyyətə malikdir.

Azərbaycan təkcə coğrafi baxımdan Şərq və Qərbin qovuşağında yerləşmir, eyni zamanda mədəniyyətlərarası, sivilizasiyalararası qovşaq rolunu oynayır. Ona görə də Azərbaycan mədəniyyətinin dünyada qəbul edilməsini, xüsusilə Şərq və Qərb ölkələrinin

---

[42] Xarici siyasət fəaliyyətinin xronikası 1997-ci il: [Elektron resurs] / URL: https: // files. preslib.az/projects/ toplu/v2/f4_5.pdf.

[43] Azərbaycan Respublikası hökuməti və Fransa Respublikası hökuməti arasında investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının qanunu. Bakı, 27 noyabr 1998 / “Azərbaycan” qəz. – Bakı, – 1993, 3 yanvar.

Azərbaycan mədəniyyətinə, mədəni irsinə, incəsənətinə, hətta xalq yaradıcılığı nümunələrinə maraq göstərməsi təsadüfi deyildir[44].

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan-Fransa mədəni əlaqələrində yeni mərhələ başladı. Bu əlaqələr elm, təhsil və incəsənət sahələrini əhatə edir. Fransa dövlət müstəqilliyini yenicə elan etmiş Azərbaycanın mədəniyyət sahəsindəki bütün tədbirlərini müdafiə etdiyini bəyan etdi. Eyni zamanda, Azərbaycan da Fransanın bu sahədə verdiyi bütün təkliflərə diqqətlə yanaşırdı[45].

Müstəqillik illərində Fransa və Azərbaycan arasında ədəbi əlaqələrin qurulması, Azərbaycan yazıçı və şairlərinin Fransada öyrənilməsi və təbliği, fransız ədəbiyyatının mütərəqqi istiqamətlərinin ölkəmizdə təbliği sahəsində də müəyyən addımlar atıldı. 1995-ci ildə dahi Nizami Gəncəvinin fransız dilində tərcümə olunmuş qəzəlləri "Mözüra" jurnalında nəşr edildi[46]. Azərbaycan ədəbiyyatının şah eposu sayılan "Kitabi-Dədə Qorqud" dastanının Fransada təbliği diqqət mərkəzində oldu. Dastanın 1300 illiyi münasibəti ilə YUNESKO-nun təşəbbüsü ilə Parisdə təntənəli tədbirlər keçirildi.

Sonrakı illərdə Fransa ilə mədəni əlaqələr istiqamətində Heydər Əliyev fondunun müstəsna xidmətləri göstərilmişdir. Fond zəngin Azərbaycan mədəniyyətini, ədəbiyyatını, incəsənətini Fransada təbliğ etmək sahəsində məqsədyönlü fəaliyyət göstərir. Fond Azərbaycan dilinin tədris olunduğu Fransanın ən qədim elm və təhsil ocaqlarından olan Şərq Dilləri və Sivilizasiyaları Milli İnstitutunun kitabxanasına müxtəlif sahələri əhatə edən nəfis şəkildə çap olunmuş 150 nüsxədən ibarət 100 adda elmi və bədii ədəbiyyatlar hədiyyə etmişdir[47] .

---

[44] Axundova, J. Müxtəlif ölkələrdə diaspor və ictimai-mədəni diplomatiya / J. Axundova. – Bakı: Elm və təhsil, – 2016. – 92 s., – s.57-62.

[45] Qocayev, (Eyvazlı) A. Müasir-Azərbaycan Fransa münasibətləri / – Bakı: Şuşa, – 1999. – 64 s.

[46] Abdullayev, Ə. Müstəqil Azərbaycan və Fransa / Ə. Abdullayev. – Bakı: İqtisad Universiteti nəşriyyatı, – 2007. – 210 s., – s.182.

[47] Qasımov, E.A. Azərbaycan-Fransa mədəni əlaqələri (2006-2008-ci illər) // – Bakı: Bakı Universitetinin Xəbərləri, – 2017. № 2, – s.156-163, – s.158.

Aparılan araşdırma göstərir ki, Azərbaycan Respublikası ilə Fransa arasında 1991-2003-cü illərdə enerji, ticarət-iqtisadi, elm, təhsil, mədəniyyət və humanitar sahələrdə əlaqələr qurulmuş və genişlənmişdir. Qarşılıqlı münasibətlərin müqavilə-hüquq bazası yaradılmışdır. Mədəniyyət sahəsində ikitərəfli əməkdaşlıq üçün hüquqi-normativ baza 1997-ci ildə imzalanmış Fransa və Azərbaycan arasında mədəni münasibətlər haqqında birgə bəyanat olmuşdur. Təhsil və elm idarələri arasında əlaqələr qurulmuş, əməkdaşlığın formaları müəyyənləşdirilmiş, tələbə, mütəxəssis mübadiləsi həyata keçirilmişdir.

Dissertasiya işinin **"Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinə Fransanın münasibəti"** adlanan üçüncü fəsli iki paraqrafdan ibarətdir. Fəslin birinci paraqrafı **"Ermənistanın hərbi təcavüzünə Fransanın mövqeyi"** adlanır.

Dağlıq Qarabağ münaqişəsi yarandığı zamandan 1996-cı ilin sonuna qədər Fransa Respublikasının mövqeyinin təhlili aşağıdakı nəticələrə gəlməyə imkan verir. Hər şeydən əvvəl, münaqişənin yarandığı ilk vaxtlardan Fransadakı erməni lobbisinin fəal təbliğatı və fransız cəmiyyətində yaydığı yalanlar nəticəsində bu dövlətin məsələyə yanaşması qəti şəkildə Azərbaycanın əleyhinə olmuşdur. 1992-ci ilin iyunundan 1993-cü ilin ortalarına qədər olan müddətdə Azərbaycan tərəfi Fransa dövlətinin ermənipərəst mövqeyinə qarşı kəskin mövqe tutmuşdur. 1993-cü ilin oktyabrından 1996-cı ilin sonlarına qədər olan dövrdə Fransanın Azərbaycanda olan iqtisadi maraqlarından və Azərbaycan dövlətinin düzgün xarici siyasət xəttindən irəli gələrək tədricən dəyişikliklər edilmişdir.

Fəslin ikinci paraqrafı **"ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın fəaliyyəti"** adlanır. Burada 1997-ci ilin yanvar ayından etibarən Fransa Respublikası Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində və həllində üzərinə məsuliyyət götürən əsas tərəflərdən biri - ATƏT-in Minsk qrupunun həmsədri oldu. Bununla da Fransanın fəallığı artdı. Belə bir fəallıq səbəbsiz deyildi. Fransanın Azərbaycanda iqtisadi maraqları təmin olmuşdu. Fransanın "Elf-Egiten" neft şirkəti 1996-cı il iyuun 4-də imzalanmış

"Şahdəniz" beynəlxalq müqaviləsində 10 faizlik pay əldə etmişdi.

ATƏT-in 1996-cı il dekabr ayının 2-dən 4-dək keçirilən Lissabon zirvə görüşündən[48] sonra Minsk qrupunun həmsədrlik institutunda dəyişiklik baş verdi. 1992-ci ildən 1996-cı ilə qədərki dövrdə Minsk qrupuna İtaliya (1992-1993), İsveç (1994), Rusiya və Finlandiya (1995-1996) sədrlik etmişdilər[49].

Münaqişənin həllinə dair təklifə Minsk qrupu ölkələrinin dövlət başçıları da münasibətlərini bildirdilər. Kolorado ştatının inzibati mərkəzi olan Denverdə keçirilən böyük səkkizlərin toplantısı çərçivəsində ABŞ Prezidenti Bill Klinton, Rusiya Federasiyasının Prezidenti Boris Yeltsin və Fransa Respublikasının Prezidenti Jak Şirakın 1997-ci il iyunun 20-də Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə kömək edilməsinə dair imzaladıqları birgə bəyanatda dövlət başçıları münaqişənin davam etməsindən narahatlıqlarını bildirir, onun bütün Qafqaz regionunda iqtisadi və ictimai inkişafı, rifahı ciddi surətdə sarsıtdığını qeyd edir, 1 milyondan çox adamın evlərindən didərgin düşdüklərini göstərir, atəşkəsin davam etməsini müsbət qiymətləndirir, münaqişənin həllinə kömək edəcəkləri vədini verir, Azərbaycan və Ermənistan rəhbərlərinin birbaşa görüşlərinin keçirilməsini tövsiyə edirdilər[50].

**"Nəticə"** hissəsində dissertasiyada tədqiqat zamanı əldə edilmiş aşağıdakı mühüm nəticələr verilmiş və ümumiləşdirmələr aparılmışdır:

1.Aparılan tədqiqatlar göstərir ki, Azərbaycan Respublikasının Fransa Respublikası ilə hərtərəfli əməkdaşlığının inkişafında Prezident Heydər Əliyevin müəyyənləşdirdiyi praqmatik xarici siyasət xətti mühüm rol oynamışdır. Məhz onun fəaliyyəti nəticəsində iki ölkə arasında ən yüksək səviyyədə dialoq qurulmuş və münasibətlər inkişaf etmişdir;

---

[48] Lisbon Summit: [Electronic resource] / URL: https://www.osce.org/ event/ summit_1996.

[49] OSCE Minsk Group: [Electronic resource] / URL: https://www.osce.org/ mg.

[50]Qasımlı, M.C. Azərbaycanın xarici siyasəti (1991-2003): [2 cilddə] / M.Qasımlı, – Bakı: Mütərcim, – c.1. – 2015. – 648 s., – s.241-242.

2..Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinə Fransanın münasibəti məsələsinin təhlili nəticəsində belə bir qənaətə gəlmək olar ki, münaqişənin yarandığı vaxtlardan bu ölkə birtərəfli mövqe tutmuş, ermənipərəst olmuşdur. Lakin 1993-cü ilin ortalarından etibarən bu mövqedə müəyyən dəyişikliklər baş vermişdir. Bütün bunlara baxmayaraq, Fransa münaqişəyə daim ədalətsiz münasibət göstərmiş və bəlli səbəblərdən mövqeyi ermənipərəst olmuşdur. Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində Fransa dövlətinin rəsmi mövqeyi Azərbaycanın ərazi bütövlüyünə hörmət edilməsinə əsaslanmışdır. Lakin bəzən həlledici məsələlərdə Ermənistanın və Fransadakı erməni təşkilatlarının, icmasının və lobbisinin təsiri altında bu ölkə adekvat addım atmamış və proseslərə ikili standartlardan yanaşmışdır;
3.1997-2003-cü illərdə danışıqlar prosesininin uğurla nəticələnməməsi həm Ermənistanın qeyri-konstruktiv mövqeyi, həm də münaqişənin tənzimlənməməsinə həmsədr dövlətlərin, o cümlədən Fransanın ikili standartlardan çıxış etməsi, təcavüzkar Ermənistana heç bir təzyiq göstərməməsi, işğalçı ölkəni silahlandıran digər həmsədr ölkəyə - Rusiyaya heç bir narazılıq bildirməməsi və s. ilə bağlı olmuşdur. Minsk qrupunun həmsədri kimi Fransanın fəaliyyətində fəallıq diqqəti cəlb etsə də, bütövlükdə konstruktiv olmamışdır. Fransanın siyasəti münaqişəni dondurmağa, işğalı "oldu-bitdi" kimi qəbul etdirməyə xidmət etmişdir;
4.Tədqiq edilən illərdə Azərbaycan və Fransa arasında enerji, ticarət-iqtisadi, elm, təhsil, mədəniyyət və humanitar sahələrdə əməkdaşlıq üçün müqavilə-hüquq bazası yaradılmış və həyata keçirilmişdir. Belə bir nəticəyə gəlinmişdir ki, Prezident Heydər Əliyevin hakimiyyəti illərində iki ölkə arasında ticarət-iqtisadi əməkdaşlığın müqavilə-hüquq bazası yaradılmış və möhkəmləndirilmişdir;
5.Aparılan tədqiqatlar göstərir ki, Azərbaycan Respublikası və Fransa Respublikası arasında münasibətlərin araşdırılması elmi və siyasi baxımdan aktualdır, problemin ayrı-ayrı istiqamətlərinin gələcəkdə də davam etdirilməsi prioritet məsələlərdən olmalıdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. Azərbaycan-Fransa iqtisadi əməkdaşlığı / Aspirantların və gənc tədqiqatçıların elmi konfransının tezisləri. II hissə. – Bakı: 2000, – s. 157-158.
2. Azərbaycan-Fransa münasibətlərinin inkişafında Heydər Əliyevin rolu // Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası. – Bakı: 2011, №3, – s.217-222.
3. XX əsrin 90-cı illərində Azərbaycan-Fransa mədəni əlaqələri / "Müasir dünyada inteqrasiya və müqavimət prosesləri" beynəlxalq elmi konfrans. – Bakı. 2012, – s.335-337.
4. Azərbaycan və Fransa münasibətlərinin inkişaf tarixindən // Tarix və onun problemlər. Nəzəri, elmi, metodik jurnal. – Bakı. – 2015, №3, – s.255-260.
5. Azərbaycanın xarici siysətində Fransa Respublikasının roluna dair / "Müstəqil Azərbaycanın 25 il ərzində keçdiyi tarixi yol" mövzusunda elmi-praktik konfransın materialları. – Bakı. – 2016, – s.40-41.
6. Fransanın Cənubi Qafqaz siyasəti və Dağlıq Qarabağ problemi / Qafqazşünasların I Beynəlxalq Forumu/First İnternational Forum of the Caucasus studies Scholars 17-18 aprel / April, 2017. Bakı / Baku, Elmi məruzələr/ Scientific Papers. 2 kitabda: 1-ci kitab. – Bakı: MTM İnnovation. – 2017, – s.263-267 /Educasusstudies.az/e-kitabxana/institutun-nesrleri/66-qafqazshunasların-beynelxalx-forumu.html.
7. Cənubi Qafqaz Fransanın xarici siyasətində / Qafqaz böyük sarsıntılar şəraitində: tarixi təcrübə, müasir dövr və perspektivlər. Respublika Elmi konfransı.Tezislər. – Bakı, – 04 dekabr, 2017-ci il. – 2017, – s.60-61.
8. Fransa və Azərbaycan Respublikaları arasında əlaqələrin inkişafını şərtləndirən amillər / Azərbaycan Texnologiya Universiteti. "Urbanizasiyalı sənayeləşmə şəraitində mədəni irsin və biomüxtəlifliyin qorunması" mövzusunda beynəlxalq emi-praktik konfrans, II hissə. – Gəncə. – 2017, – s.223-224.

9. Azərbaycan və Fransa Respublikaları arasında elm-təhsil sahəsində əməkdaşlıq (XX əsrin 90-cı illəri) /Müsəlman Şərqində ilk parlamentli respublika,Azərbaycan Xalq Cumhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları, – 21-23 may 2018, – Bakı. 2018, – s.742-744.
10. Сотрудничество в области энергетики между Азербайджанской Республикой и Французской Республики // Евразийский Союз Ученых (ЕСУ) 9 часть, – Москва, РФ2019, №6 (63), – s.13-17.
11. XX əsrin sonu-XXI əsrin əvvəllərində Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında mədəniyyət sahəsində əməkdaşlıq // Geostrategiya. İctimai-siyasi, elmi-nəzəri jurnal. – Bakı, – 2019. № 04 (52), – s.57-63.
12. The first official visit of national leader Heydar Aliyev to France is an important factor in building cooperation between Azerbaijan and France / Proceedings of the 8th International Scientific and Practical Conferance Challenges in Science of Nowadays. – Washington. USA.4-5.04.2021, – 2021. №48, – s.678-681.
13. The trade and economic cooperation between the Republics of Azerbaijan and France (1991-2003) // Актуальні питання гуманітарних наук: міжвузівський збірник університету імені Івана Франка, – Украіна, – 2022, №56, www.aphn-journal.in.ua.

Dissertasiyanın müdafiəsi 28 iyun ____ il tarixində saat 12⁰⁰ Bakı Dövlət Universitetinin Tarix fakültəsi nəzdində fəaliyyət göstərən ED 2 .20 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1148, Bakı şəhəri, Yasamal r/nu., Zahid Xəlilov küç., 23.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 27 may 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17.04.2024
Kağızın formatı:60x84 1/16
Həcm: 38976 işarə
Tiraj: 100 nüsxə